# MƏDƏNİYYƏTİMİZİN görkəmli nümayəndəsi

***Xalqımızın mədəniyyətinin, maarifinin inkişafı tarixində elə şəxsiyyətlər var ki, onların xidmətlərinin miqyası ölçüyə gəlmir. Belə şəxsiyyətlərin əvvəlincilərindən idi Üzeyir bəy Hacıbəyli.***



Təsadüfi deyil ki, ulu öndərimiz Heydər Əliyev Ü. Hacıbəyli yaradıcılığını, şəxsiyyətini həmişə yüksək qiymətləndirmişdir. "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur. " ( H. Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s. 131).

Ü. Hacıbəyli ömrü boyu xalqını təhsilli, savadlı görmək arzusu ilə yaşamış və bu müqəddəs işi şərəflə başa vurmuşdur. O, Azərbaycan qadınının musiqi təhsilinə xüsusi əhəmiyyət verirdi. Onun vətəndaşlıq qayğısı nəticəsində ölkəmizdə Ağabacı Rzayeva, Hökümə Nəcəfova, Ədilə Hüseynzadə, Şəfiqə Axundova, Elmira Nəzirova kimi görkəmli bəstəkarlar yetişmişdir.

Respublikamızın xalq artisti professor ilk peşəkar pianoçu Kövkəb xanım Səfərlibəyova üçün də Üzeyir bəyin qayğısı unudulmazdır. Məlumdur ki, 1936-ci ildə Ü. Hacıbəyli ilk Azərbaycan xorunun təşkilinə nail ola bilmişdir. Onu da göstərmək lazımdır ki, o zaman Azərbaycan musiqisində çoxsəsliyin inkişafı məsələsi, xüsusilə də xor ifaçılığı Üzeyir bəyi çox narahat edirdi. Belə ki, xor ifaçılığında, çoxsəslilik məsələsində Üzeyir bəylə razılaşmayanlar az deyildi. Həmin hadisələri Kövkəb xanım xatırlarkən göstərirdi ki, xor ifaçılığına Üzeyir bəy hələ 20-ci illərin əvvəllərində əhəmiyyət verməyə başlamışdır. Onun "Nəğmə və bədən tərbiyəsi" kursları dinləyicilərinin xoruna rəhbərlik etdiyini çoxları bilmir. . Kövkəb xanımın xatirəsindən o da məlum olur ki, Üzeyir bəy o zaman az-çox Bakıda olan məktəblərə getmiş xor ifaçılığının təşkilinə və təbliğinə nəzarət etmişdir.

"Günlərin bir günü Üzeyir bəy sinfə daxil oldu və müşayiətçi kimi xorun içində iştirak etməyi mənə təklif etdi. Mən dedim ki, bu işin öhdəsindən gələ biləcəyimdən ehtiyat edirəm. Lakin o məni mehribancasına ruhlandıraraq, notları təqdim etdi və ilk tapşırığını verdi".

Üzeyir bəyin qayğısı və onun tapşırığının müvəffəqiyyətlə həyata keçirilməsi sonradan Kövkəb xanımın Üzeyir bəyin etibarlı silahdaşı, görkəmli musiqiçi kimi formalaşmasına imkan vermişdir.

El atası H. Z. Tağıyev gənc Şövkət Məmmədovanı və onun nənəsini dinlədikdən sonra Şövkətin İtaliyanın Milan şəhərində musiqi (vokal ifaçılığı) təhsili alması üçün şərait yaradacağına söz verir. Birdəfəlik 200 rubl və hər ay 40 rubl göndərir. Lakin bu yardım yeddi ay davam edir, gənc müğənni təhsilini yarımçıq qoyub Bakıya qayıdır. Gözlənilməz xəbər, istedadın qayğısına heç vaxt laqeyd olmayan Üzeyir bəyi müvafiq tədbir görməyə məcbur edir, lazımı məbləğ toplayıb gənc müğənnini təhsilini davam etdirmək üçün İtaliyaya qaytarmaq. Çıxış yolunu Üzeyir bəy o zamanın tanınmış artistləri - M. Əliyev, X. Terequlov, H. Sarabskinin iştirakı və köməkliyi ilə "Ər və arvad" operettasının tamaşasının Tağıyev teatrında göstəriilməsində, tamaşadan sonra Ş. Məmmədovanın səhnəyə çıxıb xalq mahnıları və romanslar ifa etməsində görür. Bu hadisə ilə əlaqədar olaraq "Bakı" qəzeti 1912-ci ilin aprelində məlumat vermişdir. Məlumatda göstərilirdi: "Nicat" cəmiyyəti müğənni Ş. Məmmədovanın nəfinə tamaşa göstərəcəkdir. Ş. Məmmədova musiqi təhsilini davam etdrmək üçün İtaliyaya gedəcəkdir. Məlumatda belə müraciət də var idi: "Ümid edirik ki, bu tamaşanın nəcib məqsədi bu gün sox saylı tamaşaçıları Tağıyev teatrına cəlb edəcəkdir. Onu da qeyd etmək lazımdır ki, Üzeyir bəyin rəhbərliyi ilə təşkil olunmuş tədbir uğurla keçmiş, hətta, H. Z. Tağıyev şəxsən gənc müğənniyə gül dəstəsi təqdim etmişdir. Təəssüf olsun ki, xeyriyyəçilik məramlı tədbirin sonunda xoşa gəlməz hadisə baş vermişdir, fonatiklər teatra daxil olub müğənninin ünvanına nalayiq sözlər demişlər. Yaranmış hərc-mərclik nəticəsində toplanmış 1500 rubl müsadirə olunmuşdur. Üzeyir bəy və həmkarları Ş. Məmmədovanın həyatını təhlükədən qurtarmaq üçün lazımı tədbirlər görməli olmuşlar.

İllər keçdi, Ş. Məmmədova dünya şöhrətli ifaçı kimi tanındı, lakin Üzeyir bəyin qayğısı onun üstündən əksik olmadı. Böyük Vətən müharibəsi qurtardıqdan sonra Konservatoriyaya rəhbərlik edən Üzeyir bəy Ş. Məmmədovanı bu təhsil ocağına müəllim götürmüşdür. Öz növbəsində Şökət xanım ustadının etimadını doğrulda bilmişdir.

Üzeyir bəy ölkəmizdə musiqinin kütləvi hal alması üçün onun təbliğinə gənc Azərbaycan qızlarını cəlb etməyi lazım bilmişdir. Dərs dediyi qızlara qayğı göstərir - sizin simanızda azərbaycanlı qızlarının xoşbəxt gələcəyini görürəm - deyirmiş. Təsadüfi deyil ki, dərs dediyi tələbələr ömürləri boyu bu qayğını minnətdarlıqla xatırlamışlar.

Bütün Şərqdə ilk opera yazmış görkəmli bəstəkar qadın Şəfiqə Axundova söyləyir ki, onu sənətə gətirən, Asəf Zeynallı adına musiqi məktəbində, Azərbaycan Dövlət Konservatoriyasında təhsil almasında, nəhayət bəstəkar kimi yetişməsində Üzeyir bəyin köməkliyini ömrü boyu unutmayacaq.

Üzeyir bəyin xarakterində xeyirxahlıq, dostlara, tanışlara xüsusilə istedadlı tələbələrə maddi və mənəvi köməklik etməsi haqqında çoxlu nümunələr göstərmək olar. Böyük Vətən müharibəsi illərində Şəfiqə Axundovanın da ailə vəziyyəti bir çoxları kimi əzab əziyyətli keçmişinə baxmayaraq təhsilini və yaradıcılığını davam etdirmişdir. Şəfiqənin tələbə dostları otuz manat təqaüd aldığı halda o həştad manat təqaüd almışdır. Bu məsələ ilə maraqlananda

məlum olmuşdur ki, onun vəziyyəti ağır olduğuna görə Üzeyir bəy hər ay öz əmək haqqından əlli manat ayırıb Şəfiqənin təqaüdünə əlavə edirmiş. Sonradan Şəfiqə əlavə puldan imtina edəndə Üzeyir bəy təkid edir ki, gənc tələbə-bəstəkar bu "kömək"dən imtina etməsin. Göründüyü kimi, Ş. Axundovanın bəstəkar kimi formalaşmasında Ü. Hacıbəylinin qayğısı danılmazdır. Daha bir qayğını da xatırlamağı lazım bilirəm. 1943-cü ilin martında Şəfiqə Axundova çörək talonunu itirir. Əlbəttə bu hadisənin çətinliyini Böyük Vətən müharibəsi illərini yaşamış insanlar yaxşı bilər. Hadisədən xəbər tutan Üzeyir bəy tezliklə M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrının rəhbərliyi ilə əlaqə saxlamış, Şəfiqənin işə qəbul olunmasına nail olmuşdur.

Şəfiqə xanım xatırlayır ki, 1942-ci il idi. Bir gün dərsdə Üzeyir bəyə yaxın oturubmuş, "Sənsiz" əsərinin notunu ona gətirdilər. Diqqətlə baxdım, nə gözəl əsərdir - dedim. Marağım Üzeyir bəyin diqqətindən yayınmadı. Soruşdu ki, əsər xoşuna gəlir? "Bəli" cavabını alanda həmin əsərin üstünə, "Gənc, istedadlı tələbəm Şəfiqəyə Üzeyir bəydən xatirə" yazaraq mənə bağışladı. Həmin notun əsli böyük sənətkarın ev muzeyində, surəti isə Şəfiqə xanımdadır.

İstedadlara qayğının başqa bir nümunəsi: 1944-cü ildə Ş. Axundova və Ağabacı Rzayeva ilə birlikdə Tiflisdə keçiriləcək incəsənət ongünlüyünə getməli olurlar. Üzeyir bəy onları yanına çağırır adəti üzrə sağ bığını darta-darta uzun-uzadı onların üst - başına baxır və deyir ki, gürcülər sizə baxıb deyəcəklər ki, görəsən bu dilənçiləri haradan tapıb gətiriblər. Sonra katibi Ramazan Xəlilovu yanına çağırıb gənc bəstəkarlara başdan-ayağa yeni libaslar almağı tapşırır. Təzə paltarları geyinəndən sonra hər ikisini yanına çağırır, başdan-ayağa nəzərdən keçirdir və razılığını bildirir.

Azərbaycan muğamlarını, xalq və bəstəkar mahnılarını çalıb oxuyan sənət adamları heç vaxt Üzeyir bəyin nəzarəti və qayğısından kənarda qalmamışdır. Belə insanların müdafiəsi repressiya illərində də ona mane ola bilməmişdir, heç nədən qorxmamışdır. Üzeyir bəyin rəhbərliyi ilə o zamanlar Şərq musiqisinə dair tez-tez keçirilən müzakirələrdə Cabbar Qaryağdı oğlu, Məşədi Məmməd, Əhməd Bakıxanov, Qurban Pirimov və b. tanınmış sənətkarlar iştirak edirdi. Belə müzakirələrin təşkil edilməsində məqsəd muğamları, xalq mahnılarını təhrif etməmək, çalanları və oxuyanları düzgün istiqamətləndirmək idi. Elmi-praktik, konsert xarakterli müzakirələrin vaxtaşırı keçirilməsi, istedadları seçim etmək, araşdırmaq mədəniyyətimizin və incəsənətimizin inkişafı naminə onlardan istifadə etmək Üzeyir bəyin təşkilatçılıq işinin nəticəsi idi.

Belə görüşlərdə Üzeyir bəy Əhməd Bakıxanovun ifasında "Rast", "Bayatı - Şiraz", "Çahargah", "Segah" və b. muğamları dəfələrlə dinləmiş, biliyini, istedadını təsdiqdən sonra onu konservatoriyanın tar sinfinə müəllim götürmüşdür.

Əhməd Bakıxanovun Sovet imperiyasının "düşmən"i kimi qardaşı ilə həbs olunduğunu bildikdə Üzeyir bəy onun işi ilə maraqlanmış, heç nədən çəkinmədən görkəmli tarzənin günahsız olduğunu Mircəfər Bağırov (1938-ci ildə Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə gedən zaman) çatdırmışdır. M. Bağırov Üzeyir bəy: "O sol əli ilə çalanı deyirsən? " deyə soruşur. M. Bağırov Ə. Bakıxanovun işi ilə maraqlanacağını bildirir və dinə əməl edir. Bu şad xəbər Bakıxanovlar ailəsinə çatdıqdan az sonra qardaşlar həbsdən azad olurlar.

Görkəmli dirijor və bəstəkar Səid Rustəmovun oğlu bəstəkar və dirijor Eldar Rüstəmov atasını xatırlarkən söyləyir ki, atam deyirdi ki, təsadüfən Üzeyir bəyə rast gəlməsəydi allah bilir onun taleyi necə olacaqdır. O, həmin görüşü belə təsvir edirdi: "Bir dəfə dərsdən çıxanda musiqi sədası eşitdim. Sanki ruhum yerindən oynadı. Özüm də hiss etmədən musiqi gələn tərəfə addımladım. Qapını açıb heyranlıqla məşq edənlərə baxdım. Qəfildən tanımadığım bir nəfər qolumdan yapışıb məni sorğu-suala tutmağa başladı:

- Sizə nə lazımdır, cavan oğlan?

- Heç, elə-belə musiqini eşidib gəldim

- Yəgin, musiqini çox sevirsiniz?

- Heç musiqini sevməmək olar?

O məni ilk baxışda çox ciddi, qaraqabaq görünən bir kişinin yanına apardı. Məni göstərib dedi:

Bu cavan oğlanın musiqidən çox xoşu gəlir. Həmin kişi məni sorğu-suala tutdu:

- Hansı musiqi alətində çalmaq xoşlayırsan?

Ürkək-ürkək dedim: Pianoda. Mehribanlıqla məni süzüb təəssüf etmiş kimi başını yırğaladı:

- Yox, siz gecikmisiniz. Pianoda çalmaq vaxtınız çoxdan ötüb. Yaxşısı budur ki, Sizi tar sinifinə yazaq.

Bu qəfil təklifdən özümü itirdim. Dilim dolaşa-dolaşa ancaq bunu deyə bildim: Axı, mənim çalmağa tarım yoxdur.

- Ondan narahat olma, tapıb verərik. Amma çalış yaxşı musiqiçi ol. Beləliklə, gələcəyin görkəmli bəstəkarı S. Rüstəmov musiqi məktəbinin tələbəsi olur Bir qədər sonra isə onu musiqi məktəbinə qəbul edən kişinin Üzeyir bəyin olduğunu bilir. S. Rüstəmov daha sonra xatırlayır ki, "açığını deyim ki, Üzeyir bəylə bu təsadüfi görüş olmasaydı, bəlkə də heç vaxt musiqiçi olmazdım. Məni ömürlük musiqi sənətinə bağlayan və formalaşdıran Üzeyir bəy olmuşdur".

Onu da göstərmək lazımdır ki, Səid Rüstəmov Üzeyir bəyin ən çox etibar etdiyi, xətrini istədiyi musiqiçilərdən olub. Təsadüfi deyil ki, 1938-ci ildə Moskvada orkestrin müşayiəti ilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsərinə məhz o dirijorluq etmişdir. Bu tarixi nailiyyəti xüsusi vurğulamaq lazımdır. Simfonik orkestr üçün yazılmış əsəri xalq çalğı alətləri orkestrinə çevirmək və onu yüksək səviyyədə Moskva tamaşaçılarına təqdim etmək və deməkdir?

Üzeyir Hacıbəylinin pedaqoji fəaliyyəti, istedadlara qayğısı, musiqi yaradıcılığı, vətəndaşlıq mövqeyi, şəxsiyyəti haqqında müasirləri, zəmanəmizin görkəmli alimləri, Üzeyirsevərlər çox yazıblar və yazacaqlar. Həmin yazılar və xatirələr illər keçdikcə Üzeyir bəyi qədirbilən xalqımıza daha da yaxınlaşdırır, sevdirir. Məslək və əqidə dostu akademik M. Topçubaşovun dediyi kimi: "O xalqımızın tərəqqi səmasında yanan ulduz idi və eləcə də qalır. Bəzən Üzeyir bəy milli operamızın banisi deməklə kifayətlənirlər. Məhdud qiymətdir. Bəs onun müəllimliyi. . . Mən deyərdim: Üzeyir bəy XX əsr mədəniyyət və incəsənətimizin hər cəhətdən özəyidir. "

Deyirlər, dahilər yüz ildən bir yetişir. Anadan olmasından yüz iyirmi il keçir, hələlik Üzeyir Hacıbəyli zirvəsinə yüksələn görünmür. Elə Üzeyir sənətinin böyüklüyü də bundardır.

*Ələkbər Məmmədov,*
**ADMİU-nin professoru**